**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az

"___"__________2015-ci il №__________

# ƏMR № 82

**Bakı şəhəri** **10 aprel 2015-ci il**

**"İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə maarifləndirmə işlərinin təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən Səhiyyə Nazirliyinin Tədbirlər Planının aidiyyəti bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə

## ƏMR EDİRƏM:

1. "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində" Səhiyyə Nazirliyinin Tədbirlər Planının 2.21-ci bəndinin 16-cı hissəsinə uyğun olaraq 2015-ci ilin sonunadək:

1.1. əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasının insan sağlamlığı üçün zəruri olması barədə maarifləndirmə işlərinin aparılması ilə bağlı Bakı şəhərindəki 15 orta təhsil müəssisəsində şagird heyəti ilə həkim-mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin.

2. Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planı təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planına uyğun xərclərin smetası tərtib edilsin və həmin smeta üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın ki, təşkili və keçirilməsinə nəzarət edilməklə Əmrin 1-ci bəndində qeyd olunan hər bir görüş və mühazirə barədə mütəmadi olaraq məlumat verilsin.

5. Əmrin icrasına nəzarət direktorun müavini Rahib Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

# MƏLUMAT

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 16.02.2012-ci il tarixli 14 nömrəli əmri ilə təsdiq edilmiş "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 2.21-ci bəndinin 16-cı hissəsinə əsasən "Əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasının insan sağlamlığı üçün zəruri olması barədə maarifləndirmə işlərinin aparılması" İSİM-ə həvalə edilmişdir. Qeyd olunan bəndin icrasını təmin etmək məqsədi ilə 2015-ci ilin sonunadək 15 məktəbdə maarifləndirmə mühazirələrinin aparılması nəzərdə tutulur.

Məktəblərin siyahısı və tədbirlərlə bağlı xidmətlər barədə cədvəl əlavə edilir (qoşma 1 vərəq).

Layihələrin əlaqələndirilməsi
şöbəsinin müdiri

Səbinə Babazadə
16.03.2015

| Cədvəl | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə |
| təlimçilər | Elnarə Əliyeva,<br>Məryəm Əliyeva |
| administrativ xərclər | |
| nəqliyyat xərcləri | |
| fotoxidmət | 1 nəfər |

| № | Məktəb, lisey, universitet | Təlimçilərin adı/<br>əhatə dövrü |
|---|---|---|
| 1. | Xətai Rayonu 204 saylı orta məktəb | Elnarə Əliyeva,<br>Məryəm Əliyeva<br><br>Mart-may aylarında |
| 2. | Xətai Rayonu 98 saylı orta məktəb | |
| 3. | Xətai Rayonu Humanitar Fənlər Təmayüllü Məktəb - Lisey | |
| 4. | Xətai Rayonu 261 saylı orta məktəb | |
| 5. | Suraxanı Rayonu Yeni Günəşli 2 saylı Uşaq evi | |
| 6. | 3 nömrəli Bakı Peşə Liseyi | |
| 7. | 13 nömrəli Bakı Peşə Liseyi | |
| 8. | 179 saylı tam orta məktəb | |
| 9. | 182 saylı tam orta məktəb | Sentyabr-dekabr aylarında |
| 10. | 25 saylı orta məktəb | |
| 11. | 29 saylı orta məktəb | |
| 12. | 63 saylı orta məktəb | |
| 13. | 86 saylı orta məktəb | |
| 14. | T.Abbasov adına 225 saylı tam orta məktəb | |
| 15. | 41 saylı orta məktəb | |